# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№288/1** **30 iyun 2017-ci il**

## “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş” barədə

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı”nın 5.2-ci “Hüquqi şəxs olan monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və effektiv tətbiqinə metodiki dəstəyin təmin edilməsi” və Auditorlar Palatasının 2017-ci il üzrə İş Planının 3.9.4-cü “Auditor təşkilatlarına və sərbəst auditorlara qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulması və effektiv tətbiqi üzrə metodiki dəstəyin təmin edilməsi” bəndlərinə əsasən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş” bəyənilsin (əlavə olunur).

2. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə (M.Abbasov) tapşırılsın ki, iki həftə müddətində “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş” tətbiq edilmək məqsədi ilə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikası Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasına, Azərbaycan Respublikası Mərkəzi Bankına, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına göndərilməsi təmin edilsin.

3. Auditor təşkilatlarına tapşırılsın ki, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş”ə uyğun olaraq özlərinin daxili nəzarət sistemlərini formalaşdırsınlar.

4. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə (M.Abbasov, B.Məmmədli) tapşırılsın ki, daxili nəzarət sisteminin qurulması və tətbiqi sahəsində auditor təşkilatlarına zəruri əməli köməklik göstərilməsi təmin edilsin.

5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş”in “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək 9-cu cildinə daxil edilməsini təmin etsin.

6. Bu qərarın və metodik göstərişin mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**